# Azərbaycan vokal sənətinin təşəkkülündə ispan oxuma məktəbinin rolu

**Rüfət Piriyev**
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası. Azərbaycan.
E-mail: rufetvokal@mail.ru

**Annotasiya.** Məqalədə ispan vokal ifaçılığında təzahür edən əsas ifaçılıq metodları öz əksini tapır. Azərbaycan vokal məktəbinin formalaşmasında Bakıda çıxış edən opera truppalarının əhəmiyyəti vurğulanır və İspan oxuma ənənələrinin, Azərbaycan vokal məktəbinin formalaşmasında təsiri yolları müəyyən edilir. Azərbaycanda konservatoriyanın yarandığı ilk dövrlərdə dünya vokal sənətinin inkişafında müstəsna rola malik olan İspan vokalçılar ailəsi "Qarsiyaların", xüsusən Manuel Qarsiyanın (oğul), onun tələbələri olan K.Everardi və H.N.Salomanın ifaçılıq prinsiplərinin təsiri araşdırılır. Əsas yeniliklərdən biri kimi, XX əsrdə Azərbaycan Dövlət Konservatoriyasında çalışmış ilk vokal müəllimləri arasında M.Qarsiyanın (oğul) davamçıları müəyyən edilir və ustad-tələbə münasibətlərini əks etdirən şəcərəsi təqdim olunur.
**Açar sözlər:** İspaniya, vokal, M.Qarsiya, pedaqoq, Azərbaycan

**Məqalə tarixçəsi:** göndərilib – 08.09.2022; qəbul edilib – 22.09.2022

# The role of the Spanish singing school in the formation of Azerbaijani vocal art

**Rufat Piriyev**
Baku Music Academy named after Uzeyir Hajibeyli. Azerbaijan.
E-mail: rufetvokal@mail.ru

**Abstract.** In the article, the main performance methods manifested in Spanish vocal performance are reflected. The importance of opera troupes performing in Baku is emphasized in the formation of the Azerbaijani vocal school. The influence of Spanish singing traditions on the formation of the Azerbaijani vocal school is determined. In Azerbaijan, in the early days of the conservatory, the influence of the performance principles of the Spanish vocalists family "Garcias", especially Manuel Garcia (son), his students K.Everardi and H.N.Saloman, who had an exceptional role in the development of world vocal art, is revealed. As one of the main innovations, the successors of M.Garcia (son) among the first vocal teachers who worked at the Azerbaijan State Conservatory in the 20th century are identified, and his genealogy reflecting the master-student relationship is presented.
**Keywords:** Spain, vocal, M. Garcia, pedagogue, Azerbaijan

**Article history:** received − 08.09.2022; accepted − 22.09.2022

## Giriş / *Introduction*

İspan vokal məktəbi Avropanın ən böyük ifaçılıq məktəblərindən biri kimi tanınır. "XVII əsrdə İtaliya və Almaniyada opera mədəniyyəti inkişaf edirdi. Ancaq İspaniyada opera XVIII əsrə qədər tam formalaşmamışdı... İtalyan operası həm İspaniyada, həm də Latın Amerikasın-

da milli operanın inkişafında əsas rol oynadı. İtaliya musiqiçilərinin İspaniyada olması və inteqrasiya etmələri, musiqi üslubu və tarixinə öz təsirini göstərmişdir. XVIII əsrin əvvəllərində xarici musiqiçi və bəstəkarlar, İspan sarayında üstünlük təşkil edirdilər [8, s.2-3].

Sitatdan aydın olur ki, İspaniyanın musiqi həyatına italyan incəsənətinin böyük təsiri olmuşdur. Zamanla opera sənəti İspaniyada geniş vüsət almış və insanlar tərəfindən yüksək rəğbət qazanmışdır. Belə bir mühit ispan ifaçılarının formalaşmasına da təsir göstərmişdir. Xüsusən XVIII əsrdə ispan vokal ifaçılığına italyanların böyük təsiri olmuşdur.

## Əsas hissə / *Main Part*

İspan vokal sənəti dedikdə, Qarsiya ailəsinin adı xüsusi qeyd edilməlidir. Bu isə bir neçə səbəbə əsaslanır. Başlıca olaraq Qarsiyaları vokalçılar ailəsi adlandıra bilərik. Ailədə önə çıxan Sevilyada doğulmuş tenor səsli ifaçı və pedaqoq Manuel del Populo Visente Rodriqez Qarsia (ata) italyan bəstəkar C.Rossininin sevimli tenoru kimi tarixə düşmüşdür. M.Qarsiyanın (ata) qızları Mariya Malibran, Pauline Viardot öz dövrlərinin ən yaxşı opera ifaçılarından olmuşlar. Qusstavo Qarsiya (M.Qarsiyanın (oğul) oğlu, bariton), Alberto Qarsiya (Q.Qarsiyanın oğlu, bariton), Luiz Herit Viardott (Pauline Viardotun oğlu) kimi ifaçılar da, Qarsiya ailəsinin vokal irsinin davamçılarıdır. Dünya vokal sənətinin inkişafında öz töhvəsini verən ən məhşur musiqi xadimlərindən biri sayılan M.Qarsiyanın (ata) oğlu Manuel Patrisio Rodriqez Qarsiya isə musiqi tarixində ən yaxşı pedaqoq və vokal ifaçılığı tədqiqatçıları sırasındadır. Atası kimi, o da peşəkar musiqiçi və pedaqoq olaraq vokal sənətində öz fərdi ideyalarını irəli sürmüşdür. Manuel Qarsiyanın (oğul) araşdırma materiallarında həm özünün, həm də atasının ifaçılıq metodları öz əksini tapmışdır.

"Nikola Porpora və XVIII yüzilliyin kastrat ifaçılarının ənənələrinə dayaqlanan qədim italyan vokal məktəbinin şagirdi olan Qarsiya (ata), nəfəs texnikası və vokal tembri üzərində yeni fəndləri öz ifasına uyğunlaşdıran XIX əsrin yeganə və ilk tenoru idi. Ata Qarsiyanın pedaqoji sistemi oğlu M.Qarsiyanın araşdırmalarında elmi-nəzəri cəhətdən əsaslandırılmış və bu gün üçün aktual olan vokal pedaqogikasının əsasına çevrilmişdir" [1, s.12].

"Manuel Qarsiya (oğul) atasının səs müəllimi, sərt intizamlı pedaqoq-tenor Covanni Anzani ilə də bir neçə dərs almışdır. Daha əhəmiyyətlisi C.Anzaninin Farinelli və Kafarelliyə dərs demiş Nikola Porporanın (1686-1768) şagirdi olduğu güman edilir. Buna görə də Anzani, həm böyük, həm də kiçik Qarsiyaya "Köhnə italyan məktəbi" metodunu aşılamışdır" [14, s.26].

Yuxarıda verilən hər iki sitat Qarsiya ailəsinin vokal metodikasının əsaslarının "Qədim italyan məktəbi" ənənələri üzərində qurulduğunu təsdiq edir.

M.Qarsiya (oğul) bir çox dünya şöhrətli ifaçıların müəllimi olmuşdur. Qarsiya ailəsinin vokal irsi Avropa ölkələrində geniş yayılmışdır. Cessi Bond (ingilis soprano), Kamilio Everardi (belçıkalı bariton), İohanna Yaxman-Vaqner (bəstəkar R.Vaqnerin qardaşı qızı), Antoniette Sterlinq (amerikalı kontralto), Aleksandr Dodonov (rus tenor), İsveç Bülbülü ləqəbli Cenni Lind (isveçli soprano) və bir sıra başqa ifaçılar M.Qarsiyanın (oğul) vokal məktəbindən bəhrələnmişlər. Onlar öz növbəsində bu ənənələri gələcək nəslə ötürmüşdürlər. Beləliklə, "Qədim italyan məktəbi" ənənələrinə əsaslanan Qarsiya metodları dünyanın müxtəlif ölkələrində vokal sənətinin formalaşmasına təsir etmiş olur. Bu təsir Azərbaycanda da öz əksini tapmışdır. Azərbaycan vokal tədrisində "Qədim italyan məktəbi" ənənələrini müdafiə edən M.Qarsiyanın (oğul) metodlarına hər zaman yer verilmişdir. Bu metodlar M.Qarsiyanın (oğul) müəllifi olduğu bir sıra əsərlərində öz əksini tapır. Ən məşhur nümunələrdən biri olan "İfaçılıq məktəbi – ifaçılıq sənətinə dair tam traktat (Le Traité complet de l'art du chant)" elmi-metodiki əsəri misal göstərilə bilər.

Həmin traktat haqqında yazılmış bir sitata nəzər salaq: "Le Traité complet de l'art du chant" (İfaçılıq sənətinə dair tam traktat) bir ne-

çə səbəbə görə mühüm sənəddir: birincisi, XIX əsrin ortaları və sonlarının ən mühüm və nüfuzlu müəllimlərindən birinin (Manuel Qarsiya (oğul)) fikirləri burada öz əksini tapır; ikincisi, əvvəlki nəsildən olan görkəmli müğənni və müəllimdən (atasından) çox şey ehtiva edir; üçüncüsü, müəllifin səs təsnifatı anlayışını çox təfərrüatlı şəkildə göstərir" [3, s.43].

Bu əsərdə M.Qarsiyanın (oğul) vokal nəzəriyyəsini ifadə edən bəzi ümumi mühüm metodoloji prinsiplər bunlardır: (М.Гарсиа (сын) «Школа Пения» (Le traité complet de l'art du chant)). 1) torakal-diafraqmatik tənəffüs, 2) səsin bərk hücumu (coup de glotte), 3) səsin orta registrdə yumrulanması və yuxarı registrdə qapalı olması 4) qadınlarda kəsişən registrlər, falsetto (qarışıq) və baş registri (fausset-tête), 5) tembrlərin təsnifatı (açıq və qaranlıq), 6) hər iki registrdə tünd tembrdə qırtlağın aşağı vəziyyəti, 7) falsetto zamanı çoxlu nəfəs [7, s.5].

Hələ XX əsrin əvvəllərində, Azərbaycan Dövlət Konservatoriyasının təsis edildiyi ilk zamanlarda SSRİ məkanından dəvət almış bir sıra vokal pedaqoqlar fəaliyyətə başlamışdılar. Onlar, əksərən, rus konservatoriyalarının məzunları idilər. XX əsrin vokal pedaqoqları haqqında məlumatlar Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimləri: Xalq artisti Xuraman Qasımova və dosent Lətafət Yusifovanın müəllifləri olduğu "Vokal kafedrası" adlı məqalədə göstərilmişdir. Həmin məqalədə qeyd olunan bir sitata nəzər yetirək: "Milli musiqi mədəniyyətinin inkişafı üçün kadrlar yetişdirmək lazım idi. Məlumdur ki, həmin illərdə ilk vokal müəllimləri professor N.İ.Speranski və Polyayev olmuşlar. Sonra vokal öyrənməyə başlayan yeganə azərbaycanlı gənc Murtuza Məmmədov (Bülbül) idi. 30-cu illin əvvəlində K.S.İsaçenko, Q.V.Karve, E.İ.Qyarskaya, D.V.Banovskaya, M.A.Kolotova və başqa bir sıra təcrübəli müəllimlər şöbəyə dəvət olunmuşdular" [12].

Araşdırma zamanı həmin pedaqoqlardan bəzilərinin formalaşmasında M.Qarsiya (oğul) ifaçılıq metodlarının rolu olduğu aşkarlanmışdır. Bunu aydınlaşdırmaq üçün, ilk olaraq, M.Qarsiya (oğul) ifaçılıq prinsiplərinin Rusiyanın vokal sənətində təzahürünə qısa nəzər yetirək. 1860-cı illərdə Anton Rubinşteyn, Manuel Qarsiyanın (oğul) tələbəsi, soprano səsli opera ifaçısı Henriette Niessen-Salomanı, 1870-ci ildə isə Belçikalı bariton səsli opera müğənnisi Kamillo Everardi Peterburq Konservatoriyasına dəvət edir. Hər iki pedaqoq həm təcrübi, həm də yüksək səviyyədə nəzəri biliyə malik idilər.

"H.N.Saloman öz pedaqoji fəaliyyətində M.Qarsiyanın (oğul) prinsiplərinə arxalanırdı. O, dərslərdə fərdiliyə diqqət yetirir, müğənni intonasiyasının, sözün və vokal səsin vəhdətinə, səs tembrinin ifadəliliyinin inkişafına böyük diqqət verirdi…. O, həmçinin A. Rubinşteynin ricası ilə "Oxuma məktəbi" (1881-ci ildə Sankt-Peterburqda nəşr olunub) adlı metodik vəsait yaratmışdır. Vəsait üç hissəli idi: 1. nəzəri, 2. praktiki (iki məşğələ dəftəri), 3-XVIII əsrin sonu – XIX əsrin ortaları məşhur müğənnilərin ariyaları toplusu" [6, s.57].

Bu cür dərs vəsaitinin çap edilməsi Rusiyada Avropa ənənəli vokal sənətinin təşəkkülündə mühüm addımlardan biri kimi qiymətləndirilə bilər. Müəllifin bilik və təcrübələrini əks etdirən bu cür vəsaitlər həm də vokal sənətinin sistemli şəkildə öyrənilməsində rol oynayır. K.Everardi də H.N.Soloman kimi, M.Qarsiyanın (oğul) tələbəsi olmuş, həmçinin Milan Konservatoriyasının professoru Françesko Lampertidən vokal sənətinin sirlərini öyrənmişdir. Belçika Konservatoriyasında ilk akademik təhsilini alan K.Everardi, həmçinin Paris Konservatoriyasını da bitirmişdir. O, sonrakı dövrlərdə M.Qarsiya (oğul), F.Lamperti ilə çalışmış, italyan oxuma prinsiplərini dərindən mənimsəmişdir.

"Everardi Fransız oxuma məktəbini, xüsusən də Qarsianın (oğul) istiqamətini təmsil edir. Bu məktəb italyan – Boloniya və xüsusilə Neapol (mənşəyi 17-ci əsrin ortalarına gedib çıxır) ənənələri üzərində qurulmuşdur" [13, s.239].

K.Everardi tarixdə öz məktəbini yaradan pedaqoqlardan olmuşdur.

"Everardi məktəbinin aşağıdakı prinsipləri önə çıxır:

| |
|---|
| 1. Kostabdominal (qarın boşluğu) nəfəs: dərin və sakit nəfəsalma, səslənmə zamanı qənaətli və davamlı (qırılmayan) nəfəs səsin əsasını təşkil edir (appogio della voce). |
| 2. Səsin güclü başlanğıcı (coup d’air)-dəqiq və enerjili səslənmə |
| 3. Vokal tonun dəqiqliyi |
| 4. Fəal işləyən baş rezonatorları |
| 5. Kişi səslərində qarışıq registrin formalaşdırılması (voix mixte) və səsin maskaya oturdulması |
| 6. Vokalizasiya və səs idarəetmə texnikasına xüsusi diqqət: Bütün saitlərlə səslənmə, lazım gəldikdə, saitlər “l” və “m” samitləri ilə birləşdirilir. |
| 7. Sərbəst emissiya, plastika, çeviklik, asan və homogen səslənmə, səslərin dəqiq yüksəkliyi |
| 8. Səs dinamikası və tembr (açıq/qaranlıq) mübadiləsi |
| 9. Fraza kantilenası |
| 10. Səsin artikulyasiyası və ifadəliliyi |
| 11. Orqanik (təbii) ifa |

Everardi məktəbinin səmərəliliyi, onun tələbələrinin parlaq sənət və pedaqoji fəaliyyətləri ilə sübut olunmuşdur” [13, s.239-240].

H.N.Saloman və K.Everardi səsin düzgün inkişafına diqqət edirdilər. Sinə-abdominal nəfəs metodunu düzgün hesab edən K.Everardinin tələbəsi N. Salinanın söylədikləri olduqca maraqlıdır: “Müəllim dərindən nəfəs almağı xahiş edir, sonra nəfəsi astaca verərək qamma oxumağa başlanılır. Bu zaman səs nəfəsin dayaq nöqtəsi ilə üst-üstə düşməlidir. Yüksək səslərin ifası zamanı qarınla zərbə edilməlidir. Everardi deyirdi: “Not nə qədər yüksəkdirsə, onu aşağı təsəvvür etmək lazımdır”. Müəllim səsin bərabərləşdirilməsi üçün qeyd edirdi: “Sinəni başının üstünə, başını da sinənin üstünə qoy”. Üst registr səsin tündləşdirilməsi ilə yaranır. Eyni zamanda müəllim, bu tündləşmənin boğuq səsə çevrilməməsinə ciddi nəzarət edirdi” [6, s.58].

Pedaqoji fəaliyyət müddətində M.Qarsiyanın (oğul) vokal metodikasını mənimsəmiş hər iki pedaqoq bir sıra görkəmli ifaçıları yetişdirərək, rus vokal məktəbinin inkişafında mühim rol oynamışdırlar. İ.Tartakov, F.Stravinski (İ. Stravinskinin atası), N.Speranski, D.Usatov (F.Şalyapinin müəllimi) K.Everardinin, V.Zarudnaya, N.İretskaya, A.Krutikova, E.Lavrovskaya, M.Slavina isə H.N.Salomanın yetişdirdikləri görkəmli incəsənət nümayəndələrindən bəziləridir. Qeyd edək ki, K.Everardinin metodları, onun davamçılarından olan Stanislav Qabelin fəaliyyətinin nəticəsi kimi, müasir dövrümüzə gəlib çatması ilə fərqlənir.

“44 illik pedaqoji fəaliyyətində Qabel rus müğənnilərinin parlaq qalaktikasını (46 nəfər) yetişdirib. Tələbələrindən: İ.Erşov, O.Kamionski, M.Karakaş, V.Kastorski, A.Sekar-Rojanski. Everardinin məktəbinin əsasları S.Qabelin şagirdləri nəsli vasitəsilə günümüzə çatır (Everardi – Qabel – Tomars – Lukanin – Nesterenko)” [6, s.58].

Belə aydın olur ki, rus vokal məktəbinin formalaşmasında M.Qarsiyanın (oğul) tələbələri olan K.Everardi və H.N.Saloman çox böyük təsirə malik olmuşlar. Həmçinin bu vasitə ilə rus opera ifaçılarının italyan oxuma prinsiplərini dərindən mənimsədikləri də aydın olur. Rus vokal ifaçılığında M.Qarsiya vokal ifaçılığı irsinin rolunu müəyyənləşdirmək Azərbaycan Konservatoriyasında fəaliyyət göstərmiş birinci nəsil vokal müəllimlərinin istinad etdiyi metodlar haqqında da təsəvvür yaratmış olur.

Qeyd edək ki, Azərbaycan Konservatoriyasının ilk vokal müəllimlərindən olan Nikolay İvanoviç Speranski (bas), Manuel Qarsiyanın (oğul) tələbəsi olan K.Everardidən ifaçılıq sənətinin sirrlərini öyrənmişdir. Ukrayna SSRİ Əməkdar artisti Polyayev-Palyayev (Drozzo-Polyayev) Fedor Nikolaeviç (bariton) isə K.Everardinin tələbəsi olan səhnədə Rikardo

Nordi adı ilə tanınan Nuvel-Nordi Riçard Fyodoroviçdən vokal dərsləri almışdır. Həmçinin konservatoriyada fəaliyyət göstərmiş Azərbaycan SSRİ Əməkdar müəllimi, professor Lısenko-Qolskaya Sofiya Kononovna (soprano) da K.Everardi sinfində təhsil almışdır. Professor Lısenko həm də ən yaxşı italyan müəllimlərindən dərs almışdır. Bunu sitat vasitəsilə təsdiq edə bilərik: "O, Peterburqda, ilk olaraq, fərdi şəkildə ifaçılıq sənətini öyrənib, 1882-1883-cü illərdə Peterburq Konservatoriyasında (K.Everardinin sinfi) və İtaliyada F.Lamperti, Qaletti və Q.Ronkonidən dərs almışdır" [10].

O, Azərbaycan incəsənətinə bir sıra mükəmməl ifaçılar bəxş etmişdir. SSRİ əməkdar artistləri Titarenko Mariya Sergeyevna (soprano), Baqratovna Tatyana Bədirova (soprano), İdris Ağalarov (bariton) məhz Lısenkonun tələbələri olmuşlar.

M.Qarsiya vokal irsinin davamçıları sırasında İ.S.Stepanoviçin adını da daxil edə bilərik. "İsaçenko Konstantin Stepanoviç 1929-1938-ci illərdə Azərbaycan Konservatoriyanın professoru olmuşdur" [15]. O, Peterburq Konservatoriyasında S.İ.Qabelin (K.Everardinin tələbəsi) sinfində dərs almışdır.

XX əsrin 40-cı illərindən isə bariton səsli ifaçı Vasili Alekseviç Nikolski Bakı Konservatoriyasında pedaqoji fəaliyyətə başlamışdır. O, Moskva Konservatoriyasında məşhur rus bəstəkarı və dirijoru Mixayıl İppolitov-İvanovun həyat yoldaşı Varvara Mixaylovna Zarudnaya – İvanovanın (soprano) sinfində təhsil görmüşdür. V.M.Zarudnaya-İvanova isə M.Qarsiyanın (oğul) iki tanınmış tələbəsi H.Nissen-Saloman və K.Everardidən dərs almışdır. V.M. Zarudnaya-İvanova (soprano) haqqında yazılan bir sitata nəzər salaq: "Pedaqoji fəaliyyətində öz müəllimi K.Everardinin metodlarına sadiq qalmışdır" [16].




XX əsrin sonu və hələ erkən dönəmlərini yaşadığımız XXI əsrdə də İspan vokal məktəbinin Azərbaycan ifaçılıq sənətinə təsirinə rast gəlirik. Bu dövrdə Azərbaycanı dünyanın nüfuzlu səhnələrində uğurla təmsil edən Yusif Eyvazovun, Samir Cəfərovun, Dinarə Əliyevanın yetişməsində məhz İspan vokal məktəbinin ən məşhur simalarından, məhşur opera ulduzları Plaçido Dominqo və Monserrat Kabalyenin rolu olmuşdur. Azərbaycanın Xalq artisti Samir Cəfərov M.Kabalyenin Bakıya səfəri zamanı onunla bir səhnədə çıxış etmişdir. Bu fikri sitatla təsdiq edə bilərik: "S.Cəfərov ilk dəfə bu səhnəyə 2004-cü ilin noyabrında dünya şöhrətli müğənni Monserrat Kabalye ilə birlikdə qədəm qoymuş və əfsanəvi sənətkarla birgə çıxış etmişdi. Dünya vokal sənətinin ən parlaq ulduzlarından – Q.Vişnevskaya və M.Kabalyedən dərs alan, bu sənətin sirlərini öyrənən istedadlı gənc, opera solisti kimi səhnəyə çıxacaqdır" [11]. Qeyd etdiyimiz sitat həm də S.Cəfərovun M.Kabalyedən dərs aldığını təsdiq edir. Belə-

liklə, Azərbaycan müğənnisi, M.Kabalyenin timsalında Avropa vokal ifaçılığının sirlərini daha da dərindən mənimsəyərək, Azərbaycanda əsl Avropa üslubu ilə oxuyan opera müğənnilərindən birinə çevrilir. M.Kabalye azərbaycanlı müğənnimizin ifasını çox yüksək qiymətləndirmişdir. Xalq artisti S.Cəfərovun "Ayna" qəzetində yayımlanmış müsahibəsindən bir fikri qeyd etmək olar: – "Xanım Kabalye ilə əməkdaşlığınız necə yarandı? – Konsertlərdə məni dinləyənlər səsim barədə ona məlumat vermişdilər. O da məni dəvət etdi. Hətta mən oxuyandan sonra Kabalye ağladı. Dedi ki, çoxdandır belə tenor eşitmirmiş" [2, s.19].

Azərbaycanın Xalq artisti Dinarə Əliyeva da M.Kabalyenin sənətindən bəhrələnmişdir. Bakıya səfəri zamanı ispan opera ulduzunun ustad dərsində iştirak etmiş və ifası çox yüksək qiymətləndirilmişdir. Bu məqam Dinarə Əliyevanın rəsmi internet səhifəsinə istinadən yazılmış sitatda öz təsdiqini tapır: "Soprano Montserrat Kabalye tərəfindən "cənnət hədiyyəsinə sahib olan müğənni" kimi təsvir edilən azərbaycanlı soprano Dinarə Əliyeva 2010-cu ildə Moskvada Böyük Teatra solist kimi qatılıb və o vaxtdan bəri dünyanın böyük opera teatrlarında və konsert salonlarında çıxış edib" [4].

S.Cəfərov və D.Əliyeva haqqında M.Kabalyenin söylədiyi fikirlər, azərbaycanlı müğənnilərin yüksək peşəkarlığını və həm də Azərbaycan vokal məktəbinin səmərəliliyini üzə çıxarır. Çünki bu ifaçılar Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələri olmuşlar. Azərbaycanı dünyada təmsil edən, Ü.Hacıbəyli adına BMA-da vokal təhsili almış ən yaxşı tenorlardan olan Xalq artisti Yusif Eyvazovun formalaşmasında da ispan ifaçılarının rolu olmuşdur. Bu, Y.Eyvazovun internet saytların birində yayımlanmış müsahibəsində qeyd etdiyi fikirlərdə təsdiqini tapır: "Konservatoriyada ilk dəfə opera musiqisi ilə tanış oldum, lakin sonradan bu janra olan ciddi marağımı şərtləndirən dönüş nöqtəsi Konservatoriyanın Moskva zalında Montserrat Kabalyenin çıxışı oldu. O vaxtdan opera ilə "xəstələndim", – deyə bilərəm" [9]. M.Kabalyedən təsirlənən Y.Eyvazovun inkişaf yolu olduqca maraqlıdır. O, bir sıra dahi ifaçılardan ustad dərsləri almışdır. Bunu təsdiq edən bir sitata nəzər salaq: "...İtaliyaya, Milana gedir. Burada Franko Korelli, Luçano Pavarotti, Maqda Oliveri, Plaçido Dominqodan ustad dərsləri alır" [5]. Bu gün isə Y.Eyvazov və P.Domingo konsert proqramlarında, tamaşalarda eyni səhnədə çıxışlar etmişlər.

Başda İtaliya olmaqla, Avropanın digər vokal məktəblərindən, o cümlədən XX-XXI əsr İspan vokal məktəbinin ən böyük opera ifaçılarından sənətin sirlərini öyrənməyə nail olan azərbaycanlı ifaçılar bu yolla Avropa oxuma üslubunu daha dərindən mənimsəməyə müvəffəq olmuşlar.

## Nəticə / *Conclusion*

Məqalədə Azərbaycanda vokal sənətinə İspan məktəbinin təsiri barədə söhbət açılır. Milli vokal sənətimizin təşəkkülündə ispaniyalı ifaçı, pedaqoq və tədqiqatçı M.Qarsiyanın (oğul) vokal irsinin təsiri müəyyənləşdirilir və ispan vokal məktəbinin köklərinin birbaşa olaraq qədim italyan oxuma məktəbi prinsiplərinə əsaslandığı aydın olur. Sonda Azərbaycan vokal sənətinin təşəkkülü prosesində İspan ifaçılıq məktəbinin təsirinin, əslində, italyan "Belkanto" üslubunun daha dərin mənimsənilməsinə xidmət etdiyi aşkarlanmış olur.

## Ədəbiyyat / *References*

1. Артистическая и педагогическая деятельность Мануэля Гарсии – старшего в контексте развития тенорового исполнительства конца XVIII – первой трети XIX века: / (Автореферат) диссертации на соискание ученой степени кандидата искусствоведения / Казань, 2020.
2. "Avropa qapıları müsəlmanların üzünə çox da həvəslə açılmır" / Xalq artisti Samir Cəfərovla müsahibə / "Ayna", 2007, 10 fevral.

URL:http://anl.az/down/medeniyyet2007/fevral/medeniyyet2007_fevral_352.htm
3. Cotton S. “Voice Classification and Fach: Recent, Historical and Conflicting Systems of Voice Categorization” / A Dissertation Submitted to the Faculty of The Graduate School at The University of North Carolina at Greensboro in Partial Fulfillment of the Requirements for the Degree Doctor of Musical Arts / The University of North Carolina at Greensboro – 2007.
4. Dinarə Əliyeva [Elektron resurs]/ bioqrafiya URL: https://dinaraalieva.com/biography
5. Dünya Azərbaycanlılarının bioqrafiya bankı “Yusif Eyvazov” [Elektron resurs] /bioqrafiya/ 03.27.2019 URL: https://azerbaycan.li/2019/03/27/yusif-eyvazov/
6. Косовцов Н.Е. Классическое вокальное образование в России в XIX веке. Теоретические основы и традиции // Ценности и смыслы. 2018. № 1 (53).
7. М.Гарсиа (сын) «Школа Пения» (traité complet de l'art du chant), части первая и вторая – предисловие, перевод, комментарии и примечания профессора, д-ра искусствоведческих наук В.А.Багадурова. Москва, МУЗГИЗ, 1956.
8. Michelle S. Smith “A Compendium of Opera in Spain and Latin America” / A Doctoral Research Document in partial fulfillment of the requirements for the degree of Doctor of Musical Arts in Voice Performance / West Virginia University / Morgantown, West Virginia – 2019.
9. Мужской академический вокал | Опера “Интервью с Юсифом Эйвазовым” [Elektron resurs] / Xalq artisti Y.Eyvazovla müsahibə / 29.06.2015
URL: https://vk.com/wall-20026781_7082
10. Nash Baku: “Lysenko - Golskaya Sofiya Kononovna – artistka opery i vokalnyy pedagog” [Elektron resurs] / sayt "Nash Baku" – 29.02.2012
URL: https://ourbaku.com/index.php/Лысенко_-_Гольская_София_Кононовна_-_артистка_оперы_и_вокальный_педагог
11. “Opera səhnəsində yeni ifaçı”, / Xalq artisti Samir Cəfərov haqqında /Azərtac-09.01.2007, https://azertag.az/xeber/OPERA_SAHNASINDA_YENI_IFACHI-365690
12. Qasımova X., Yusifova L. “Vokalnaya kafedra” [Elektron resurs] / Musiqi dünyası jurnalının saytı / Musiqi dünyası – 2012.
URL: http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=1507
13. Tamara Vainauskienė: “Camillo Everardi dainavimo mokyklos tradicija Lietuvoje: principai ir archetipai, sklaida, paralelės”, Menotyra. 2014. T. 21. Nr. 3, © Lietuvos mokslų akademija, 2014.
14. Teresa Radomski “Manuel García (1805-1906) A Bicentenary Reflection” – / “Australian Voice” / - the official journal of the Australian National Association of Teachers of Singing - December 2005, volume 11.
15. T.V.Lymareva, N.B.Seliverstova: “İsaçenko KOnstantin Stepanovich (1882-1959)” [Elektron resurs] / N.A.Rimski-Korsakov adına Sankt-Peterburq konservatoriyasının rəsmi saytı – 2015.
URL: https://www.conservatory.ru/esweb/isachenko-konstantin-stepanovich-1882-1959
16. Зарудная , Варвара Михайловна [Elektron resurs] / Bioqrafiya / 15.02.2022
URL: https://ru.wikipedia.org/wiki/Зарудная,_Варвара_Михайловна

# Роль испанской певческой школы в становлении азербайджанского вокального искусства

**Руфат Пириев**
Бакинская Музыкальная Академия имени Узеира Гаджибейли. Азербайджан.
E-mail: rufetvokal@mail.ru

**Резюме.** В статье отражены основные исполнительские приемы, проявляющиеся в испанском вокальном исполнительстве. Подчеркнута важность выступлений оперных трупп в Баку в становлении азербайджанской вокальной школы. Определено влияние испанских певческих традиций на формирование азербайджанской вокальной школы. В Азербайджане в первые годы существования консерватории ощущалось влияние исполнительских принципов семьи испанских вокалистов Гарсиас, особенно Мануэля Гарсии (сына), его учеников К.Эверарди и Х.Н.Саломана, сыгравших исключительную роль в развитии мирового вокального искусства. В качестве одного из основных нововведений определены преемники М.Гарсии (сына) среди первых педагогов по вокалу, работавших в Азербайджанской Государственной Консерватории в XX веке, и представлена его генеалогия, отражающая отношения мастера и ученика.
**Ключевые слова:** Испания, вокал, М. Гарсия, педагог, Азербайджан